BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№4 Humanitar elmlər seriyası 2015

UOT 94"19/…"

XX ƏSRİN 80-ci İLLƏRİNDƏ YAXIN ŞƏRQ BÖHRANI VƏ ABŞ-ın MÖVQEYİ

G.İ.QARAYEVA
Bakı Dövlət Universiteti
qarayeva1947@hotmail.com

Yaxın Şərq böhranının həll edilməsi yolunda səyləri nisbi olaraq iki dövrə bölmək olar: 1947-1991-ci illəri əhatə edən dövr və 1991-ci ildən günümüzədək olan dövr. XX əsrin 80-ci illəri baş verən hadisələrin fonunda özünəməxsus yer tutur.

Yaxın Şərq böhranının həlli istiqamətində atılan mühüm addımlardan biri olan FAT-ın danışıqlarda tərəf kimi tanınması məhz XX əsrin 80-ci illərinə təsadüf edir.

Açar sozlər: Yaxın və Orta Şərq, FAT, İsrail

Yaxın Şərq böhranının məhz maraqların toqquşması ilə əlaqədar olaraq yarandığını nəzərə alsaq, onda münaqişənin həll edilməsi yolunda səyləri nisbi olaraq iki dövrə bölmək olar: 1947-1991-ci illəri əhatə edən dövr və 1991-ci ildən günümüzədək olan dövr. XX yüzilliyin 80-ci illəri baş verən hadisələrin fonunda özünəməxsus yer tutur.

XX yüzilliyin 80-ci illərində də ABŞ-İsrail münasibətləri əvvəlki ənənələr əsasında inkişaf etdirilmişdir. 80-ci illərin əvvəllərində ABŞ-da prezident seçkilərində respublikaçılar partiyasının platformasında İsraillə münasibətdə Təl-Əvivin təhlükəsizliyinin təmin edilməsi əsas məsələlər sırasında idi. Həmin platformada deyilirdi ki, "İsrail dövlətinin bütövlüyü, təhlükəsizliyi və suverenliyi ABŞ-ın mənəvi tələbi olmaqla dövlət maraqlarına daxildir. Respublikaçılar bu prinsipə olan fundamental və dəyişməz öhdəliklərini bir daha təsdiqləmiş oldular. Biz İsrailin və onun silahlı qüvvələrinin Yaxın Şərqdə mühüm srateji əhəmiyyətini tam qəbul edirik" (1, p. 67). ABŞ və SSRİ-nin yeritdikləri «liderliyin ələ alınması si-yasəti» Fələstin probleminin ədalətlə, konstruktiv əsaslarla həllinə maneə yaratmışdır.

Yaxın Şərq siyasətinin həlli istiqamətində fəaliyyətin əsasının 1973-cü il ərəb-İsrail müharibəsindən sonra qoyulduğu istər ABŞ-da, istərsə də Qərbi Avropada akademik fikir kimi qəbul edilir. Məhz bundan sonra ABŞ bu

münaqişənin həllində öz diplomatik fəaliyyətinin davamlı xarakter almasına qərar vermişdir. Həmin il ərəb dövlətləri tərəfindən ABŞ-a neft satışına dair embarqo siyasətinin yeridilməsi, Vaşinqtona ərəblərə güzəştə getməyin vacib olduğunu gündəmə gətirdi. Təsadüfi deyildir ki, 70-ci illərin ikinci yarısından etibarən Vaşinqtonda münaqişənin ədalətli prinsiplər əsasında həllinin vacibliyi daha tez-tez səslənir. Hətta fələstinlilərin qanuni hüquqlarının bərqərar edilməsinin qanuni olması bildirilirdi. ABŞ dövlət katibinin Yaxın Şərq və Cənubi Asiya məsələləri üzrə məsləhətçisi Q.Sanders 1978-ci ilin iyununda Konqresin nümayəndələr palatasındakı çıxışında qeyd edirdi ki, bu problemə artıq qaçqın problemi kimi baxılmır. Fələstin xalqının qanuni hüquqları elə təmin edilməlidir ki, bu ona gələcəkdə sabit və təhlükəsiz olmaqla öz müqəddəratını həll etmək imkanı verməklə bərabər, onun İsraillə yanaşı inkişaf etməsini əsaslandırsın (2, 148). Təklif münaqişə tərəflərinin məsuliyyətinin artırılmasını nəzərdə tutsa da, Yaxın Şərqdə sürətlə silahlanmaya şərait yaratdı.

Sövdələşmə ilə yanaşı Vaşinqton münaqişə tərəflərinin malik olduqları qüvvələr nisbətinə də təsir göstərmək siyasəti yeritməyə başladı. Bunun da əsas məqsədi Yaxın Şərq dövlətlərində böhran yarandığı zaman neftlə əlaqədar obyektlərin ələ keçirilməsi və müdafiə edilməsini həyata keçirmək idi. Məhz bu səbəbdən Şərqi Aralıq dənizi hövzəsində strateji mobil qüvvələrin yaradılması nəzərdə tutulurdu.

1978-ci ilin sentyabrında C.Karterin vasitəçiliyi ilə Ə.Sədat və M.Beginin görüşü iki ölkə arasında yaxınlaşmanın əsasını qoysa da, Ərəb Şərqində bu görüş birmənalı qarşılanmadı. Əslində bu görüş regionda sabitliyə nail olmaqdan çox Misir üçün əhəmiyyətli idi. İranda şah rejiminin devrilməsi həmin dövr Misir ilə daha da yaxınlaşmanı vacib etdiyindən Vaşinqton Qahirənin maraqlarının təmin edilməsinə çalışırdı. Bu maraq İsrailin Yaxın Şərq siyasətində manevr etməsinə geniş imkanlar açmasına şərait yaratdığından Təl-Əviv öz üzərinə düşən öhdəlikləri yerinə yetirdi. 1979-cu il martın 25-də bağlanmış Misir-İsrail separat müqaviləsi Qahirənin tam təklənməsinə səbəb olsa da, bu müqavilənin bağlanmasından sonra Misirin üzləşə biləcəyi problemlər tam nəzərə alınmışdı. Belə ki, 1980-1988-ci illərin İran-İraq müharibəsi və bu müharibə çərçivəsində ABŞ-ın fəaliyyəti, nəticə etibarilə, Misirin ərəb dövlətləri tərəfindən blokadasının aradan qaldırılmasına gətirib çıxardı.

İran-İraq müharibəsi başlayan andan Vaşinqton özünün ciddi neytrallığını elan etdi. İsrail məsələsində sərt mövqedən çıxış edən İraqla Amerikanın ilk dövrlərdə münasibətləri kifayət qədər soyuq idi (3, 778). İki ölkə arasındakı əlaqələr Altı günlük müharibənin gedişində ABŞ-ın İsraili dəstəkləməsinə görə kəsilmişdi. Bununla belə, Vaşinqton-Bağdad əlaqələri Xomeyninin hakimiyyətə gəlməsindən doqquz ay sonra yenidən yaranmağa başlamışdı. Politoloq Del Val İraqı Amerika strategiyasının qurbanı adlandırır. Əlavə olaraq qeyd etmişdir ki, 80-ci illərdə ölkənin xüsusi sənayesini yarada bilən güclü siyasi və hərbi dövlətə çevirmək imkanı ola bilən yeganə ərəb ölkəsi İraq idi (4, 119).

Bununla yanaşı, Vaşinqtonun Körfəz ölkələri ilə münasibətləri yeni

mərhələyə qədəm qoydu. Belə ki, 80-ci illərdə Sovet İttifaqının Körfəz regionunda möhkəmlənmək istiqamətində gördüyü tədbirlər və onun müsbət nəticələri Vaşinqtonun nəzərindən qaçmırdı. Lakin sovet qoşunlarının Əfqanıstana müdaxiləsi həmin münasibətlərin inkişafını şübhə altına alırdı. Körfəzdə liderlik iddiasında olan İraq və İranın bir-birilə müharibə aparması həmin regionun dövlət başçılarının ciddi narahatlığına səbəb yaratmışdı. Bu məqsədlə Fars Körfəzi Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası yaradıldı və şura hərbi sahədə ABŞ-la əməkdaşlığa önəm verdi. Təsadüfi deyildir ki, ABŞ-ın prezidenti Karter 1980-ci il yanvarın 23-də verdiyi müsahibəsində Fars körfəzinin nəzarətini ələ keçirmək məqsədilə ediləcək hər bir müdaxiləni ABŞ-ın həyati maraqlarına qarşı törədilmiş bir hücum kimi qiymətləndirəcək və bu hücumun dəf edilməsi üçün silah da daxil olmaqla hər cür vasitəyə əl atacağını bildirmişdi (5, 232).

İran İslam Respublikası da yarandıqdan sonra Fələstini müdafiə mövqeyindən çıxış edir və ABŞ-ı müsəlmanların ümumi düşməni kimi dəyərləndirirdi. Xomeyni mövqeyindən çıxış edən "əd-Dəava" jurnalı yazırdı: "Əgər ərəblər və müsəlmanlar İsrailə qarşı mabarizədə müvəffəqiyyət qazanmaq istəyirlərsə, onlar mütləq ABŞ-a qarşı çıxmalıdırlar və nə qədər ki, Təl-Əvivi müdafiə edir, onları özümüzə düşmən bilməliyik, Birləşmiş Ştatlar öz siyasətini dəyişməyənə qədər biz də öz siyasətimizi dəyişməyəcəyik" (6, 10).

Lakin həmin dövr Vaşinqtonun Misir və İsrailin yaxınlaşmasına nail olması Qərbi Avropanın aparıcı dövlətləri tərəfindən birmənalı qarşılanmadı və istər London, istərsə də Paris diplomatik fəallığı artırdılar. Bu, ilk növbədə, Qərbi Avropa dövlətlərinin əvvəlki siyasi kursdan əl çəkməsində özünü göstərdi. Bu Avropanın Yaxın Şərq münaqişəsində ərəb və İsrail tərəflərini eyni dərəcədə özlərindən məsafədə saxlamaqda öz əksini tapmışdı. ABŞ ilə ciddi fikir ayrılığına baxmayaraq, müttəfiqlər bu məsələnin həllində müxtəlif yanaşmaları müdafiə edirdi. Qərbi Avropa BMT TŞ-nın 242 nömrəli qətnaməsini münaqişənin həllində əsas götürərək, ona daha qlobal xarakter verməyə çalışırdı. Lakin Avropa Birliyi bu problemdə mövcud olan ciddi ziddiyyətləri nəzərə alaraq, məsələnin həllində əldə edilmiş hər hansı nailiyyəti, o cümlədən, Misir-İsrail müqaviləsini dəstəklədiyini bildirirdi. Müqaviləni sülh əvəzində torpaq formulunun hüquqi əsası kimi qiymətləndirirdilər. Ona görə də, Avropa Birliyi işğal olunmuş ərazilərdə yəhudi məskənlərinin salınmasının əleyhinə olduğunu göstərirdi. Urdun çayının qərb sahili və Qəzzə bölgəsinə muxtariyyatın verilməsini də Avropa Birliyi qəbuledilməz hesab edirdi. Çünki bu halda Fələstin problemi həll edilməmiş qalırdı. Avropa Birliyinin təkliflərindən biri Ərəb dövlətlərinin İsrailin müstəqilliyini tanıması idi. İsrail isə, öz növbəsində, Fələstin xalqının qanuni hüquqlarını tanıyacaq, işğal olunmuş əraziləri boşaldacaqdı.

1980-ci il iyunun 13-də Avropa İqtisadi Birliyi (indiki Avropa Birliyi) Fələstinə dair Venedikt Bəyannaməsi adlı sənəd qəbul etmişdi (7, 170). Burada Fələstin probleminin həqiqi həllinin vacibliyi ön plana çəkilirdi (8, 228). Bu

qətnaməyə əsasən Fələstin xalqının öz müqəddəratını təyinetmə hüququ tanınır, İsrail isə işğal olunmuş ərazilərdən çəkilirdi. Burada, eyni zamanda, göstərilirdi ki, Yerusəlimin statusu birtərəfli qaydada müəyyən edilə bilməz və FAT danışıqlarda Fələstin xalqını təmsil edən tərəf kimi çıxış etməlidir. Bu qətnamə ilə 1969-cu ildən sonra ilk dəfə idi ki, Avropa Birliyi münaqişənin həllində fəal iştirak etmək istədiyini nümayiş etdirirdi. Lakin İsrailin FAT-ı danışıqlarda tərəf kimi qəbul etməməsi səbəbindən Avropa Birliyinin bu planı həyata keçmədi. İsrailin Lubnənin cənubundakı fəaliyyəti, İraqın nüvə reaktorlarını bombalaması da bu planın həyata keçirilməsinə mənfi təsir göstərdi. Eyni zamanda, ABŞ problemin həllində Avropa Birliyinə güzəştə getmək istəmirdi. Qərbi Avropanın bu cəhdinin boşa çıxmasında digər amil isə İsrailin FAT-la hər hansı danışığın aparılmasının qəti əleyhinə olması idi.

Qətnamənin qəbul edilməsindən bir gün sonra AB-nin dövlət katibi E.Maski bildirmişdi ki, ABŞ hökuməti AB-nin bu bəyanatının formalaşdırılmasında iştirak etməmişdir, bir gün sonra isə prezident Karter Amerika yəhudi mətbuatının Assosiasiyasının nümayəndələri ilə görüşündə bəyan etmişdi ki, FAT nə qədər ki, İsrailin mövcudluğu hüququnu tanımır, nə qədər ki, BMT-nin 242 №-li qətnaməsini tanımır, biz FAT ilə danışıqlar aparmayacağıq və FAT-nın statusunu tanımayacağıq (8, 229).

Bu zaman əl-Qaidə Amerikaya qarşı bir sıra terror hadisəsi törədirdi. Əl-Qaidənin taktikası Vaşinqtonun iştirak etdiyi bütün münaqişələrin baş verdiyi inkişaf etmiş ölkələrdə Amerika qüvvələrinə zərbə vurmaqdan ibarət idi. Beyrutda kamikadze Amerika səfirliyinə və hərbi dəniz kazarmasına hücum etmişdi (9, 119). Eyni hadisə Somalidə də təkrar olunmuşdu.

Əsas səbəblər sırasında Fələstin probleminin həllinə yanaşma həmin dövrdə xüsusi əhəmiyyət kəsb edirdi. Avropa Birliyi problemin həllində Fələstini qarşı tərəf kimi qəbul etdiyi, münaqişənin FAT-ın iştirakı olmadan həllinin qeyri-mümkün olduğu mövqeyində dayandığı halda ABŞ Fələstini danışıqlarda qarşı tərəf kimi qəbul etmək istəmirdi. Ən yaxşı halda bunun İsrail tərəfindən qəbul edilməsini ön plana çəkirdi. 1982-ci ilin iyulunda İsrailin Lubnənə müdaxiləsi isə bu problemin həllini daha da arxa plana keçirdi. Əslində AB-nin irəli sürdüyü təklifin ərəb dövlətləri tərəfindən dəstəklənməsi ABŞ-ı problemin həllindən müəyyən dərəcədə kənarlaşdırır, onun regionda mövqeyinin zəifləməsini şərtləndirirdi. Həmçinin, Avropa Birliyinin təşəbbüsü ələ alması onun regionda mövqe və nüfuzunun möhkəmlənməsinə gətirib çıxardığı bir vəziyyətdə Vaşinqton strateji müttəfiqi kimi Təl-Əvivə hərtərəfli şərait yaratmalı idi. Məhz bu amil 1982-ci il Lubnən müdaxiləsinin səbəbləri sırasında xüsusi olaraq diqqəti çəkir. Belə ki, Lubnənə müdaxilədən sonra Reyqan planının önə çəkilməsi bu fikri kifayət qədər dəstəkləyir və plan müəyyən dərəcədə problemə separat yanaşmanın davamı idi (2, 153). Amerikanın yeni təşəbbüsündə İsrailin Urdun çayının qərb sahili və Qəzzə bölgəsindəki nəzarətdən imtina etmədiyi halda, fələstinlilərə Urdun daxilində özünüidarə hüquqlarının verilməsi nəzərdə tutulurdu. Göründüyü kimi, bu plan

Fələstinin müstəqil dövlət kimi fəaliyyətini inkar edir, İsrailə qarşı heç bir təzyiqi nəzərdə tutmurdu. Lakin bu plan həm İsrail, həm də Fələstin tərəfindən qəbul edilmədi. Fələstin tərəfi planda FAT-ın danışıqlarda tərəf kimi qəbul olunmadığı və Fələstin xalqının öz müqəddəratını təyinetmə hüquqlarının tapdandığı üçün onu qəbul etmədi. İsrail isə bu planın gələcəkdə müstəqil Fələstin dövləti yaranmasına gətirib çıxaracağı ehtimalını əsas gətirirdi. ABŞ tərəfindən belə bir zəif planın irəli sürülməsi İsrailin Fars Körfəzi dövlətləri ilə strateji razılaşmasına nail olmağı nəzərdə tuturdu. Bu ondan irəli gəlirdi ki, həmin dövr regionda yaranmış hərbi-siyasi vəziyyət Vaşinqtonu Yaxın Şərq siyasətindəki ağırlığı Fars körfəzinə keçirməyə məcbur edirdi. Ona görə də, ABŞ regiondakı prosesləri tam nəzarətdə saxlamaq məqsədilə İsrailin Urdun və Fələstin nümayəndələri ilə separat danışıqlar aparmasına yaşıl işıq yandırdı. Lakin Urdun və Fələstinin bu mövqedən çıxış etmələri ərəb birliyinə növbəti zərbə idi. Buna baxmayaraq, 1985-ci il fevralın 11-də ABŞ-ın vasitəçiliyi ilə Urdun və Fələstin müqaviləsi bağlandı. Müqavilə Urdun və Fələstin nümayəndələrinin İsrail ilə separat danışıqlar aparmasını nəzərdə tuturdu (2, 154). Bu müqavilə problemin mərhələli həllini razılaşdırırdı. Birinci mərhələdə İsrailin sərhədləri tanınır; Fələstin və Urdun, eyni zamanda, ABŞ Fələstinin öz müqəddəratını təyinetmə hüquqlarını qəbul edirdi. İkinci mərhələdə ABŞ ilə aparılacaq danışıqlarda Urdun Fələstin nümayəndələri tərkibində FAT-ın rəsmi nümayəndələri də iştirak etməli idi. Üçüncü mərhələdə isə Urdun və Fələstin nümayəndələri və İsrail arasındakı danışıqlar BMT TŞ-nın beş daimi üzvünün iştirak etdiyi konfrans çərçivəsində aparılmalı idi (10, 100).

Belə bir müqavilənin imzalanması ərəb dövlətləri arasındakı birliyi sarsıtsa da, ilk növbədə, Fələstin tərəfinin əhəmiyyətli uğuru idi. İlk dəfə olaraq FAT-ın iri dövlətlər tərəfindən tanınması, əslində Fələstinin beynəlxalq əhəmiyyət daşıyan müvəffəqiyyəti idi. Hətta ərəb dövlətləri də Fələstinə hərtərəfli yardım göstərəcəklərin gizlətmədi. Avropanın aparıcı dövlətləri də bu istiqamətdə diplomatik fəallığı artırırdılar. İtaliyanın baş naziri B.Kraksı Tunisdə Yasir Ərəfatla görüşdü. Həmin dövrdə Yasir Ərəfat Urdun kralı Hüseynlə danışıqlara başlayacaqdı. İngiltərənin baş naziri M.Tetçer ilk dəfə olaraq Oman və Kiprə səfəri zamanı Urdun və Fələstin nümayəndələrini Londona danışıqlara dəvət etdi. Fransada xarici işlər naziri R.Düma Urdun və Fələstin nümayəndələrini qəbul etdi. Lakin bütün bunlara baxmayaraq, bu mərhələ də yeni bir problemlə üzləşdi. 1985-ci il okyabrın 1-də İsrailin hərbi-hava qüvvələri FAT-ın Tunisdəki baş qərargahını bombaladı. Buna səbəb isə üç İsrail turistinin Kiprdə öldürülməsi olmuşdu. Fələstin probleminin dinc yolla nizama salınmasına mane olan digər hadisə “Akille Lauro” gəmisinin ərəb terroristləri tərəfindən zəbt edilməsi və burada ABŞ turistinin öldürülməsi oldu. Lakin İtaliya rəsmilərinin apardığı təhqiqatlardan sonra rəsmi Roma Vaşinqtonu İtaliya gəmisinin zəbt edilməsində ittiham etdi. Nəticədə, ABŞ və İtaliya arasında hökumət böhranı yarandı. Yaxın Şərq məsələsində Amerikayönlü mövqe tutan Respublika partiyasının təkidi və təşəbbüsü ilə B.Kraksı hökuməti

istefaya getməyə məcbur oldu.

"Akille Lauro" münaqişəsi ilə əlaqədar 1985-ci il oktyabrın 14-də Urdun və Fələstin nümayəndələrinin Londonda keçirilməsi nəzərdə tutulan görüşü təxirə salındı. Əslində bu görüşün baş tutmamasının əsas səbəblərindən biri İngiltərə diplomatiyasının fəallaşması ilə Vaşinqtonun razılaşmaması, eləcə də, ABŞ və İsrailin rəsmi Londona etdiyi təsirlə əlaqədar idi. Əks təqdirdə, ərəb ölkələri ilə yaxınlaşma kursu götürmüş Fransa da "Akille Lauro" münaqişəsindən sonra ehtiyatın və gözləmə mövqeyini seçdiyini nümayiş etdirməzdi. Bütün bu hadisələrin əsas zərbəsi isə Urdun və Fələstin müqaviləsinə dəydi və bu müqavilə tam şəkildə reallaşa bilmədi. Yaranmış vəziyyət, Yaxın Şərq münaqişəsinin nə dərəcədə çətin və ziddiyyətli olduğunu bir daha üzə çıxarmaqla bərabər bu problemdə nə qədər maraqlı tərəflərin olduğunu da nümayiş etdirirdi.

1985-ci ilin sonlarında Yaxın Şərqdə vəziyyətin gərginləşməsi Amerika – Qərbi Avropa münasibətlərində beynəlxalq terrorizm məsələsi ətrafında diskussiyaları genişləndirmək üçün bir növ stimul yaratmış oldu. Bu diskussiyalarda ziddiyyəti təşkil edən əsas məsələ ABŞ-ın fələstinliləri və bəzi ərəb ölkələrini beynəlxalq terrorizmdə günahlandırması idi. Reyqan administrasiyası ABŞ və İsrailin fiziki və hüquqi şəxslərinə qarşı törədilən terror aktlarında əsasən fələstinliləri, xüsusilə isə, Liviyanı günahlandırırdı. Ona görə də, Vaşinqton Liviya beynəlxalq terrorizmi dəstəkləyən ölkə kimi rəsmi Tripoliyə qarşı iqtisadi və hərbi sanksiyaların tətbiq edilməsini tələb edirdi. Qərbi Avropanın belə bir mövqe ilə razılaşmamasına baxmayaraq, nəticə etibarilə, belə bir sanksiyaların tətbiq edilməsinə susqunluqla razılıq bildirdilər. 1986-cı il aprelin 14-də isə ABŞ-ın Aralıq dənizindəki bazalarında yerləşən hərbi-hava qüvvələri Liviyanı bombaladı.

Qeyd edək ki, İsrail yarandığı gündən ABŞ-ın bu ölkə ilə münasibətləri yüksələn xətlə inkişaf etmişdir. 1948-1984-cü illərdə ABŞ İsrailə 28,5 mlrd. dollar həcmində yardım göstərmişdir, ondan 19 mlrd. hərbi yardım və 9 mlrd. iqtisadi yardımı təşkil edirdi (11, 96).

Liviyaya qarşı tətbiq edilən ABŞ sanksiyaları Yaxın Şərq münaqişəsinə yeni təkan verməklə yanaşı Liviya-Fələstin əlaqələrini yeni mərhələyə keçirmiş oldu və 1987-ci ildə Fələstin torpaqlarında İntifadın başlanması üçün müəyyən dərəcədə təkan rolu oynadı. 1987-ci ildə Yaxın Şərqdə hadisələr o qədər sürətli xarakter aldı ki, onun hətta proqnozlaşdırılması belə çətin idi. 1987-1988-ci illər isə, ümumiyyətlə, regionun ən ağır dövrlərindən biri olmuş, xüsusilə, Fələstin probleminin beynəlxalq münasibətlərə daha güclü təsir edən və iri dövlətləri müəyyən akt qarşısında qoyan bir zaman kəsiyi olmuşdur. 1988-ci ilin noyabrında Fələstin Milli Şurasının fövqəladə sessiyasında Müstəqil Fələstin dövlətinin yaradılmasının elan edilməsi ABŞ və Qərbi Avropa dövlətlərinin xarici siyasətini yeni bir problemlə qarşı-qarşıya qoyurdu. Şura belə bir qərarı çıxarmaqda BMT-nin 242 və 338 saylı qətnamələrini əsas götürmüşdü. Onu da qeyd edək ki, Fələstin Müqavimət Şurasının bu qərarına Avropa Birliyi

konstruktiv yanaşsa da, ABŞ-da bu qərar bir qədər soyuq qarşılandı. Lakin buna baxmayaraq, ABŞ bu məsələdə irəliyə doğru daha bir addım atdı.

Fələstin təşkilatları arasında Yaxın Şərq probleminin nizama salınmasına müxtəlif yanaşmalar və bir sıra Fələstin təşkilatlarının ekstremist fəaliyyəti FAT-ın və ərəb ölkələrinin Fələstin ərəb xalqının hüququnun bərpası uğrunda mübarizəsini çətinləşdirirdi. 1988-ci ilin noyabrında Fələstin Milli Şurası və parlamenti Əlcəzairdə keçirilən iclasda BMT-nin Təhlükəsizlik Şurasının 242 №-li qətnaməsini, həmçinin Fələstinin bölünməsini qəbul etdilər (12, 453).

Bu isə Yasir Ərəfatın 1988-ci ilin dekabrında Cenevrədə İsrailin bir dövlət kimi fəaliyyət göstərmək hüququnu tanımasından sonra baş verdi (13, 406). Belə ki, bu hadisədən dərhal sonra ABŞ prezidenti R.Reyqan Yaxın Şərq sülh prosesi çərçivəsində FAT nümayəndələri ilə danışıqlara başlamağa razılıq verdi. Bu isə Fələstinin əvvəl əldə etdiyi uğurdan daha böyük idi və burada Vaşinqton faktiki olaraq Yaxın Şərq sülh prosesində Fələstinin danışıqlarda qarşı tərəf kimi iştirak etmək hüququnu tanıyırdı. Belə bir vəziyyət, istər Yaxın Şərq sülh prosesinin özünü, istərsə də, ABŞ-ın bu problemə münasibətindəki mövqeyini keyfiyyətcə yeni mərhələyə qaldırırdı. ABŞ-ın danışıqlarda FAT-ı rəsmi olaraq tanıması,eyni zamanda, Vaşinqtonun "Urdun variantı"ndan da əl çəkməsi idi. 1988-ci il dekabrın 14-də prezident Reyqan "FAT-la əsaslı danışıqlara başlamaq haqqında" göstəriş verdi (13, 406).

80-ci illərin sonlarında, ümumən, Yaxın və Orta Şərqdə gedən proseslər, xüsusilə, Əfqanıstandan Sovet qoşunlarının çıxarılması və İran-İraq müharibəsinin başa çatması Fələstin problemini bir qədər arxa plana keçirsə də, rəsmi Vaşinqton bu problemin həllində yeni forma və metodların axtarışına başladı. Yaranmış yeni vəziyyətdə irəli sürülən ilk təklif münaqişə aparan tərəflərin ABŞ-ın fəal vasitəçiliyi ilə birbaşa danışıqlar aparması oldu.

ƏDƏBİYYAT

1. Republican Platform Family. Neigh Borhood Peace Freedom. July 14 October 1980, p.67
2. Арбатова Н.К. Средиземноморье проблемы безопасности, М.: 1990, 148
3. Fahri Armaoğlu. 20.yüzyıl siyasi tarihi. 1914-1980. Ankara: TISA Matbaası 1983, 851 s.
4. Дель Валь. Исламизм и Соединенные Штаты: Союз против Европы. Мусульманские страны на пороге XXI в.: власть и насилие. М.: РАН ИНИОН, 145 с.
5. Таййар Ары. Ирак, Иран ве АБД, Истанбул, Алфа Йайынлары, 2004, с.232
6. Кудрявцев А.В. Исламский мир и палестинская проблема. М.: Наука, 1990, 132 с.
7. Rafiq bəy İsmayıl, Nərgiz Axundova, Aida Bağırova. Ərəb ölkələrinin çağdaş tarixi, Bakı 2013, 650 s.
8. Примаков Е.М. История одного сговора. 1985, 319 с.
9. Телхами Ш. Антитеррористическая война. Мусульманское страны на пороге XXI в.: власть и насилие. М.: РАН ИНИОН, 119 с.
10. Брасс А. Палестинские истоки. Терроризм история и современность. М.: 2004, 348 с.
11. Государство Израиль. М.: Наука, 1986, 280 с.
12. Qarayeva G., Hacıqədirli A. Ərəb ölkələrinin sosial-iqtisadi və siyasi inkişafının xüsusiyyətləri. Bakı: 2014, 475 s.
13. Современные международные отношения. М.: 2001, 582 с.

КРИЗИС БЛИЖНЕГО ВОСТОКА В 80-ых ГОДАХ XX ВЕКА И ПОЗИЦИЯ США

Г.И.ГАРАЕВА

РЕЗЮМЕ

Усилия, направленные на урегулирование кризиса на Ближнем Востоке условно можно разделить на два периода: период, охватывающий 1947-1997-ые годы, и период с 1991 года по сегодняшний день. На фоне происходивших событий, 80-ые годы XX века занимают своеобразное место.

Одним из важных шагов, предпринятых для разрешения кризиса на Ближнем Востоке - признание ООП в качестве сторонника в переговорах, пришлось именно на 80-ые годы XX века.

Ключевые слова: Ближний и Средний Восток, ООП, Израиль

CRISIS IN THE MIDDLE EAST IN THE 80s OF THE XX CENTURY AND THE POSITION OF THE UNITED STATES

G.I.GARAYEVA

SUMMARY

Attempts for the solution of the Middle East crisis can be divided into two parts: the period between 1947-1991 years and from 1991 until present. The incidents of the 80s of the XX century keep special places.

One of the necessary steps for the solution of the Middle East crisis, PLO`s recognition as a party in negotiations occurred in the 80s of the XX century.

Key words: Middle East, PLO, Israel